BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2013*

UOT 94 (979.24)

# İSLAM DİNİ MONQOL İŞĞALI DÖVRÜNDƏ

**L.A.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***lale_agamirze@yahoo.com***

*Monqol istilası başlıca olaraq tarixçilər tərəfindən mənfi qiymətləndirilsə də, əslində bu istila Azərbaycanda etnik və dini proseslərə kifayət qədər müsbət təsir göstərmişdir. Monqol hökmdarları işğaldan az sonra müxtəlif səbəblərdən, ilk növbədə siyasi səbəblərdən islam dinini qəbul etmişdilər. Lakin məsələ yeni dinə keçidlə bitmir. Monqol istilası təkcə təsərrüfat həyatını deyil, köhnə ehkamları da dağıtmış, daha doğrusu həmin ehkamların dağılmasına yol açmışdır və islam dünyasına ciddi təsir göstərmişdir. Nəticədə müxtəlif dini-mistik, bidətçi təlimlər meydana gəlmiş, fəlsəfi fikrin geniş inkişafına səbəb olmuşdur. Belə bidətçi təlimlərdən biri hürufilik təlimidir ki, bu da təkcə Azərbaycanda deyil, bir sıra Yaxın Şərq ölkələrində də yayılmışdır. Həmçinin bu dövrdə yeddi imam şiəliyindən oniki imam şiəliyinə keçid baş vermiş, İslamda yeni böyük məzhəbin yaranması başa çatmışdır.*

**Açar sözlər:** monqol istilası, islam, yeddi imam şiəliyi, ismaililik, isna-aşari (oniki imam) şiəlik, məzhəb, hürufilik

Monqol işğalı, adətən dünya tarixşünaslığında, eləcə də Azərbaycan tarixçiləri tərəfindən mənfi hadisə kimi qiymətləndirilir. Təkcə tanınmış tarixçi John K. Fairbankın əsərini buna bir misal olaraq göstərmək kifayət edər (4). Tarixçilər arasında bu proseslərin qiymətləndirilməsi demək olar ki, eynidir: monqol istilası Azərbaycanda, eləcə də digər ölkələrdə əhalinin iqtisadi, sosial və mədəni həyatını məhv etmişdir. Lakin bu istila dövrü Azərbaycanda həm etnik və həm də dini proseslərə çox ciddi təsir göstərmişdir. Digər tərəfdən, XIII- XIV əsrlər mədəniyyətinin, ilk növbədə, fəlsəfi fikrin araşdırılması bizə fərqli bir mənzərə göstərir. Bu işğalın, hər hansı digər işğal kimi, iqtisadi həyat üçün dağıdıcı xarakterini təsdiq edərək vurğulamaq lazımdır ki, o, eyni zamanda monqol istilasınadək toxunulmaz olan İslam ehkamlarının dağıdılmasına və müxtəlif bidətçi təlimlərin meydana çıxmasına səbəb olmuşdur. Məhz XIII-XIV əsrlərdə müxtəlif dini-fəlsəfi təriqətlər üzə çıxmış, çoxsaylı fəlsəfi və tarixi ədəbiyyat da ərsəyə gəlmişdir. Təsadüfi deyildir ki, tanınmış rus və sovet şərqşünası V.V.Bartold bu dövrü "İran ədəbiyyatının qızıl dövrü" (16, 84) adlandırmışdır. Çingiz xan və onun varisləri müsəlman dünyasının tarixində real bir dəyişiklikliyə səbəb olmuşlar. Bundan əlavə, biz Azərbaycanda, eləcə də bütün

Yaxın və Orta Şərq regionunda nəzərə çarpacaq etnik dəyişikliklər verdiyini qeyd etməliyik. Mərkəzi Asiyadan monqollarla birgə gətirilmiş köçəri və yarımköçəri türk tayfalarının ölkəmizdə məskunlaşması Azərbaycanda türk amilinin daha da güclənməsinə səbəb olmuşdur.

Məlumdur ki, Çingiz xan hələ Xarəzmə yürüşündən öncə türk müsəlmanlarla yaxşı əlaqədə olmuş və 1218-ci ildə iki müsəlman səfiri- Mahmud Buxari və Yusuf Kanka Otrarini oraya göndərmişdi (16, 270). Çingiz xan və müsəlman tacirlər arasında mehriban əlaqələr monqol hökmdarı üçün bir sıra üstünlüklərə gətirib çıxarmışdı. Bu müsəlman tacirlərin Qaşğar, Yarkand və Xotanda öz müsəlman qardaşlarının məruz qaldığı zülmün sonunu görmək üçün hər cür motivi var idi. Görünür ki, Çingiz xan bu tacirlər vasitəsilə Kuçluğa qarşı mübarizə üçün lazım olan bütün kəşfiyyat məlumatını əldə edə bilmişdi (5, 88). V.V.Bartold və onun ardınca Leo de Hartog, Abbasi xəlifəsinin Çingiz xandan II Sultan Məhəmmədə qarşı hücuma keçməyi xahiş etməsi ehtimalını irəli sürürlər (5, 92). Əgər belədirsə, onda xəlifə ən-Nasir özü də bilmədən Abbasi xilafətinin sonunu yaxınlaşdırmışdır.

Sərkərdə Cormoğunun başçılığı ilə monqol ordusu ikinci yürüş zamanı Azərbaycanı işğal edir və ölkə Böyük Monqol Imperiyasına qatılır. Bu hadisə Əlaəd-din Ata-Məlik Cüveyninin "Tarixe-Cahanguşa" əsərində təsvir olunmuşdur (14, 501).

Geniş əraziyə və çoxsaylı qarışıq əhaliyə malik olan Böyük Monqol imperiyası uzun müddət vahid dövlət kimi qala bilməzdi. Mirqasım Usmanovun fikrincə, təqribən 20-30 il ərzində mövcud olmuş super-imperiyasının supergeniş əraziyə malik olması onun az sonra parçalanmasını şərtləndirmişdi. Desinteqrasiya prosesi nəticəsində, onun yerində həm ərazi, həm də əhalisinin srtukturu baxımından nəhəng olan yeni dövlətlər – Böyük Xan (sonralar Yunan dövləti), Caqatay, Cuçi və Hülakü ulusları meydana gəlmişdir. (15, 835). XIII əsrin ortalarında Çingiz xanın nəvəsi Hülakü xan Yaxın və Orat Şərqi əhatə edən beşinci ulus- Hülakülər və ya İlxanilər dövlətini yaradır ki, buraya eləcə də Azərbaycan ərazisi də daxil idi və üstəlik Azərbaycan bu dövlətin mərkəzi vilayətini təşkil etmiş, onun bütün paytaxt şəhərləri- Marağa, Təbriz və Sultaniyyə kimi Azərbaycan şəhərləri olmuş, Azərbaycanın şimalındakı Şirvanşahlar dövləti isə Hulakülərin vassalına çevrilmişdilər. Bu imperiya yaranışından erkən Monqol dövləti institutları ilə yerli, daha çox inkişaf etmiş oturaq musəlman cəmiyyəti təsisatlarının konqlameratı kimi meyadana çıxmış, monqol *Yasası* ilə musəlman *Şəriətinin* bir-biri ilə ziddiyyət təşkil edən qaydaları əsasında idarə olunmuşdur (2, 251). Zaman keçdikcə *Yasa* ilə *Şəriət* arasındakı balans şəriətin xeyrinə dəyişmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, monqol istilası əsasən, tarixşünaslıqda mənfi qiymətləndirilir, lakin son tədqiqatlar bunun tam tərsini sübut edir. Belə tədqiqatlardan Judit Kolbasın araşdırmaları misal göstərilə bilər. O, yazır ki, monqollar İranda iqtisadi inkişafa əngəl olan ətalətli və arxaik pul sistemini dağıtdılar. Onlar ekstensiv ticarəti genişləndirmək, elmi, xüsusilə astronomiya

və ali riyaziyyatı praqmatik və tətbiqi vasitə kimi inkişaf etdirməklə buna nail oldular (1, 1).

Monqol hökmdarları çox keçmədən müxtəlif səbəblər, ilk növbədə siyasi səbəblərlə əlaqədar olaraq islam dinini qəbul etmişdilər: Hülakü imperiyasında Əhməd adı ilə də tanınan Teguder xan (2, 15), sonra Qazan xan, Qızıl Orda dövlətində əvvəlcə Bərkə xan, sonra Əhməd xan islamı qəbul etmişdilər. Tanınmış monqol tarixçisi Seçin Jadçid islama keçmə faktına başqa bir nəzər-nöqtədən yanaşır və yazır ki, monqol hökmdarları hiss etməyə başlayırlar ki, onların mahiyyətcə sadə və primitiv dinləri işğal etdikləri ölkələrin dərin fəlsəfə və mürəkkəb ibadət sisteminə malik olan dinləri ilə yarışa bilməz və aid olduqları din dünya fatehlərinin ruhi ehtiyaclarına cavab verə bilməz. Bu, görünür ki, monqol hakim təbəqəsinin müxtəlif dövrlərdə buddizm, xristianlıq və islam kimi dinləri qəbul etməsinə səbəb olmuşdur (12, 84). Başqa sözlə, Yaxın və Orta Şərqin tabe edilmiş əhalisi ilə hakim monqol sülalələri arasındakı etnik, mədəni və ideoloji ziddiyyətlər onları islamı qəbul etməyə sövq etmişdi. Lakin onlar xristianlığı və ya iudaizmi də qəbul edə bilərdilər, necə ki, Teguder əvvəlcə xristianlığı qəbul etmiş, sonra islama keçmişdi. Bu fakt Reuven Amatai tərəfindən tədqiq edilmişdir. XIV əsrin əvvəllərində erməni tarixçisi Hetum məlumat verir ki, kiçik yaşlarında Tegüder, xristianlığın nestorian təriqətinə aid olaması güman edilən anası Qutui Xatun tərəfindən xaç suyuna salınmışdır. Bir qədər sonra isə o, islamı qəbul etmiş və Əhməd adını götürmüşdü (11,17). Monqol hökmdarlarının, xüsusən də Hülakülərin islamı qəbul etmələri regionda bu dinin mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdur. Bunda başqa, islam dininin iki böyük qanadından biri olan oniki imam şiəliyinin – *istna- aşari şiə* islamının formalaşması məhz bu dövrdə başa çatmışdır. Orta əsr tarixşünaslığında bu məsələ əvvəlcə M.Mazzaui (6), sonra isə E.Nyuman (9) tərəfindən aparılan araşdırmalar nəticəsində belə fikir hasil olmuşdur ki, XIII-XIV əsrlərdə gedən proseslər oniki imam şiəliyinin yaranmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, yeddi imam şiəliyindən oniki imam şiəliyinə keçid prosesində Hülakü xanın məsləhətçisi, Abaqa xanın vəziri olan görkəmli alim Nəsrəddin Tusinin müstəsna rolu olmuşdur.

Məlum olduğu kimi, 1258-ci ildə Hülakü xan Bağdada daxil olaraq o zaman üçün artıq hakimiyyəti nominal olan sonuncu Abbasi xəlifəsi Mötəsimi edam etməklə Abbasi xilafətinə son qoymuş, İslam aləminin birliyini təcəssüm etdirən formal hakimiyyəti bitirmişdi. O da məlumdur ki, Abbasi xilafətinin real siyasi hakimiyyəti çox əvvəl başa çatmış, onların əvəzinə regionda hakim siyasi qüvvə isə Səlcuq sultanları olmuşdular. Quranın mətni Məhəmməd peyğəmbərin ölümündən sonra yazıya alınaraq tamamlanmış və o zamandan xəlifələrin tam nəzarəti altında toxunulmaz saxlanan bir mətnə çevrilmişdir. Bundan əlavə, ilk dövrlərdə onun fəlsəfi təhlili, izahı da qadağan edilmişdi. Səlcuq imperiyası dövrü Quran mətinin fəlsəfi-dini baxımından interpretasiya edilməsi üçün meydan açdı və digər tərəfdən, dini hökmdar hakimiyyətini əslində sekulyar olan hərbiçi türklərin hakimiyyəti əvəz etdi. Bu proses həm də

öz bəhrəsini onda göstərdi ki, yeni dini-mistik fəlsəfi cərəyanlar meydana gəldi və bunlardan biri də *yeddi imam şiəliyinə* əsaslanan *İsmaili* təriqəti oldu. Bundan əlavə, monqol istilasından öncə XIII əsrin əvvəllərində İbn Ərəbinin fəlsəfi məktəbi xüsusilə qeyd edilməlidir. Monqol istilası isə bu xüsusda ikinci, həm də radikal addım oldu. Yeni monqol hakimləri ilk dövrdə müsəlman deyildilər və ona görə də, Quran mətni üzərində diskussiya onları maraqlandırmırdı. İslamı qəbul etdikdən sonra isə İlxanilər dövləti dərhal ciddi və fundamental islami dəyərlərə malik dövlətə çevrilməmişdi. Biz islamı qəbul etmə aktı ilə bütün dövlət və inzibati-məhkəmə sisteminin islamlaşması arasında fərqi qeyd edərək onu vurğulamalıyıq ki, İslam hüquqi təsisatlarının dövlət idarə sistemində oturuşması, Hülakü dövlətitnin müsəlman dövlətinə çevrilməsi məhz XIV əsrin əvvəllərində Qazan xanın islahatları nəticəsində baş vermişdir. Bu prosesin izlənməsi üçün ən yaxşı mənbə həmin islahatların əsas ideoloqu olan Fəzlullah Rəşidəddin Təbibin "Cəmi-ət-təvarix"  əsəri (3) və "Mükəttibatı"dır (17). Diqqəti cəlb edən məsələlərdən biri Fəzlullah Rəşidəddinin müsəlman aləminin gözündə Çingiz xan imicini dəyişdirmək cəhdidir. O, yazır ki, Allah Çingiz xanın, onun əcdadlarının, övladlarının və onların törəmələrinin gücünü və şöhrətini ona görə yüksəltdi ki, onlar islamı gücləndirdilər və şəriəti təbliğ etdilər (3, 9:1:6). Məhəmməd Ulcaytunun ölümündən dərhal sonra müxtəlif feodal qrupları arasında başlayan hakimiyyət uğrunda mübarizə Hulakülər dövlətinin zəifləməsinə gətirib çıxarır (10, 16). Monqol hökmranlığı müxtəlif dini bidətçi cərəyanların, mistik sufi ənənələrinin yaranmasına səbəb olur ki, bunlardan biri hürufilik təriqəti idi. Bəşir Şahzad bu dini doktrinanı öz yeni çapdan çıxmış əsərində geniş təhlil etmişdir (16). Monqol mənşəli Cəlairi sülaləsinin hakimiyyəti dövründə 1370-ci illərin ortalarından başlayaraq hürufilik təliminin banisi Fəzlullah Nəimi öz mistik sufi baxışlarını təbliğ etməyə başlayır və bu təlim tezliklə Azərbaycanda və İranda yayılır. Məlum olduğu kimi, ərəbcə *huruf*, yəni hərflər sözündən yaranmış bu mistik təlimə görə, ərəb hərfləri ilə insanın simasına *Allah* kəlməsi yazılmışdır, demək, Allah insan simasında təcəlla edir, insan Allahın Yer üzündə mücəssiməsidir. Hürufilərin bu bəyanı islam ehkamlarına qarşı olub bir bidəti ifadə edirdi. Nəiminin ən görkəmli ardıcıllarından olan məşhur Azərbaycan şairi Nəsimi öz divanında bu ideyaları vəsf etmişdir.

Artıq yuxarıda qeyd edildiyi kim, XIII əsrdə Nəsrəddin Tusi yeddi imam şiəliyindən oniki imam şiəliyinə keçidin dini əsaslarını hazırlamışdır. Təbii ki, şiə islamının inkişafında ən pik nöqtə XVI əsrin əvvəllərində Şah İsmayıl Səfəvi tərəfindən şiəliyin rəsmi məzhəb elan edilməsi dövrüdür. Bu məzhəbin Səfəvilər tərəfindən dövlət quruculuğunda bir instrument olaraq istifadə edilməyə başlanmasında çox-çox əvvəl şiəlik Azərbaycanın müxtəlif ərazilərində hənəfi və şafii məzhəbləri ilə bərabər yayılmışdı. XIII-XIV əsrlərin hüdudlarında Ərdəbildə *istna-aşari şiə* təlimi əsasında Şeyx Səfiəddin İshaq tərəfindən *səfəviyyə* sufi ordeninin əsası qoyulur. Onun müəllimi - *mürşidi-kamil* Şeyx Zahid Gilani (1216-1301) İlxani sultanlarına ciddi dini və mədəni təsir gös-

tərmişdir. Buna görə də, o, İlxanilər tərəfindən yüksək qiymətləndirilmiş və mükafatlandırılmışdır. V.Minorski Hulakü hökmdarı Əbu Səid xanın 1320-ci ildə Şeyx Zahid Gilaninin ailəsi haqqında verdiyi fərmanı üzə çıxarmışdır (8, 515). Lakin İlxanilər dövləti Qazan xan və Ulcaytu xanın zamanında oniki imam şiəliyinin təsiri altında olsalar da, Ulcaytu hökmranlığının son illərində, Əbu Səid isə bütün hökmranlığı dövründə şiəliyin sünni sintezinə keçmişdilər. Bununla belə faktik olaraq Çobanilərin və Cəlairilərin zamanında istna-aşariyyə ideyası daha da möhkəmlənmişdir (6, 40).

Beləliklə, monqol istilasının təsərrüfat və mədəni həyatına vurduğu dağıdıcı zərbəyə rəğmən, o, müsəlman dünyası üçün heç də neqativ olmamış, onlara islam dini ehkamlarını yenidən nəzərdən keçirməyə, yeni dini fəlsəfi cərəyanların yaranmasına meydan açmışdır. Bu, həm də qeyri-ərəb müsəlmanlarına ortodoksal islamdan fərqli özlərinin mental dəyərlərinə uyğun *folk islam* -xalq islamı yaratmağa imkan vermişdir.

**ƏDƏBİYYAT**


1. Judith Kolbas. The Mongols in Iran. Chingiz Khan to Uljaytu 1220-1309. London and New York. Oxford Press, 2006, 283 pp.
2. Khazanov A. M. Nomads and outside world. Madison: University of Wisconsin Press, 1994, 315 pp.
3. Fazlullah Rashid ad-Din Tabib. Jami' at-Tawarikh. Cambridge, Mass.] : Harvard University, Dept. of Near Eastern Languages and Civilizations, 1998, 420 pp.
4. Fairbank, John King. East Asia: tradition and transformation. Boston, Houghton Mifflin co., 1978, 982 pp.
5. Leo de Hartog. Genghis Khan. Conqueror of the World. I.B. Tauris & Co. Ltd publisher. London, 1989, 386 pp.
6. Michel M. Mazzaoui. The origins of the Safavids. Shiism, Sufism, and the Gulat. Franz Steiner Verlag GMBH. Wiesbaden, 1972, 157 pp.
7. Michal Biran. Chinggiz Khan. The Hebrew University of Jerusalem. Published by Oneworld Book Publications. Oxford, 2007, 346 pp.
8. Minorsky V. The Turks, Iran and the Caucasus in the Middle Ages. Variorum Reprints. London, 1978, ii-960 pp.
9. Newman Andrew J. Safavid Iran: Rebirth of a Persian Empire. İ.B.Tauris Press, London-New-York, 2006, 281 pp.
10. Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316-1360 –cı illər). Bakı, Elm, 1978, 163 s.
11. Reuven Amitai. The Mongols in the Islamic lands : studies in the history of the Ilkhanate. Alershort (England) : Burlington,VT: Ashgate/Variorum, 2007, 247pp.
12. Sechin Jadchid. Essay in Mongolian studies. Provo, Utah : David M. Kennedy Center for International Studies. Brigham Young University, 1988, v.3, 339 pp.
13. Shahzad, Bashir. Fazlullah Astrabadi and Hurufis. Oxford Press: Oneworld, 2005, 142 pp.
14. The History of the World-conqueror /Tharikh-e-Jahangusha/ by Ala-ad-Din Ata-Malik Juvayni. Translated text of Mirza Muhammad Qazvini by John Andrew Boyle, PhD. V.I, V.II. Harvard University Press. Cambridge, Mass.,1958, 267 pp.
15. The Turks. Middle ages. Volume 2. Editor Hasan Celal Guzel, C.Gem Oguz, Osman Karatay. Printed at Semih Ofset and Bounding house Balkan Ciltevi. Ankara, 2002, 1028 pp.
16. Бартольд В.В. Сочинения. М.: Восточная лит-ра, 1963-1977. Т.1, 760 стр.

17. Фазлуллах Рашид ад-Дин Табиб. Мукаддибат//Перкписка. Перевод, введение и комментарии А.И.Фалиной. М.: Наука, Глав.редакция вост.лит., 1971, 341 стр.

## ИСЛАМ В ПЕРИОД МОНГОЛЬСКОГО НАШЕСТВИЯ

**Л.А.АЛИЕВА**

**РЕЗЮМЕ**

В основном, монгольское завоевание историками оценивается как негативное событие, однако оно оказало весьма позитивное влияние как на этнические, так и на религиозные процессы в Азербайджане. В результате различных причин, прежде всего политических, монгольские правители приняли ислам вскоре после завоевания. Монгольское завоевание уничтожило исламские догматы и привело к развитию философской мысли. В результате этого появилось много работ с новым толкованием исламских догм, и как результат этого мы можем подчеркнуть появление новой исламской секты как хуруфизм, который существовал как движение ереси не только в Азербайджане, но и в других странах Ближнего Востока. Кроме того, в период монгольского завоевания были созданы условия для появления большого исламского мазхаба - шиитского ислама двенадцати имамов.

**Ключевые слова**: Монгольское завоевание, ислам, шиизм семи имамов, исмаилизм, исна-ашари двенадцать имамов, шиизм, мазхаб, хуруфизм

## İSLAM DURING THE MONGOLIAN CONQUEST

**L.A.ALIYEVA**

**SUMMARY**

Mainly, Mongolian conquest is evaluated as a negative event by the historians, however the Mongolian conquest had a quite positive impact on both ethnic and religious processes in Azerbaijan. As a result of different reasons, first of all political, the Mongolian rulers adopted Islam soon after the conquest. But things didn't end with the adoption of a new religion, moreover this conquest had influence on the Islam world. The Mongolian conquest destroyed the Islamic dogmas and sparked off the various disputes over both the Islamic law and philosophy. As a result of this, many works with the new interpretation of Islamic dogmas appeared; we should underline the appearance of a new Islamic Hurufid sect, existed as a heresy movement not only in Azerbaijan, but also in other counties of Middle East. Moreover, in the Mongolian period there were created conditions for the rising of a big Islamic sect - *Twelver Shia* Islam.

**Key words:** Mongolian conquest, Islam, sevener Shia Islam, Ismailism, Isna-ashari Shia Islam, madhab, hurufism